# Peşəyönümü işinin həyata keçirilməsində valideynlərlə əməkdaşlıq

**Gülnar Tahirli**

*Azərbaycan Respublikasının Təhsil İnstitutunun Peşə və ömürboyu təhsil şöbəsinin baş mütəxəssisi*

*e-mail: g.tahirli@arti.edu.az*

**Xülasə:** Peşəyönümü işinin həyata keçirilməsində valideynlərlə əməkdaşlıq günümüzdə son dərəcə aktual və gündəmdə olan mövzudur. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu peşəyönümünə dair məsləhət xidmətlərinin 4 qrup şəxslərə göstərilməsini təsbit edir ki, bunlardan biri də Valideynlər (təhsil müəssisələrinin tələbə və şagirdlərinin valideynləri) kimi müəyyən edilmişdir. Təhsil sistemi dəyişir, valideynlik anlayışı, tələbatları dəyişir və bu, valideynlərin övladlarının təhsil prosesində daha səlahiyyətli və daha faydalı şəkildə iştirak etmələrini tələb edir. İşin əsas məqsədi, valideynlərin övladlarının təhsil sahəsində daha səlahiyyətli və ehtiyatlı bir şəkildə cəlb edilməsi, onların təşviq edilməsidir. Bu məqalədə fərdin peşə seçiminə valideynlərin təsiri və onlarla əməkdaşlığın formaları öz əksini tapıb.

**Açar sözlər:** peşəyönümü, peşə seçimi, karyera, valideynlərlə əməkdaşlıq.

**Key words:** career guidance, career choice, career, cooperation with parents.

**Ключевые слова:** профориентация, выбор профессии, карьера, сотрудничество с родителями.

Peşə seçimi hər kəsin həyatında verməli olduğu ən çətin, ən məsuliyyətli qərarlardan biridir. Bu seçim uzunmüddətli nəticələrə səbəb olacaq bir qərardır ki, bununla fərdin təhsili, əmək bazarında yeri müəyyən edilir. Buna görə də, peşəyönümü xidmətinin həyata keçirilməsi fərdə peşə seçimində doğru, əsaslandırılmış qərar verməkdə köməklik göstərən çox önəmli mərhələdir. Gənclərin təhsil və öyrənmə yolları ilə bağlı əsaslandırılmış qərarlar qəbul etmələri üçün peşəyönümü xidmətinin mövcudluğu vacibdir.

Peşəyönümü xidmətinin həyata keçirilməsində bir sıra fəaliyyət metodları və istiqamətləri mövcuddur. Peşəyönümü xidmətinin həyata keçirilməsində ən mühüm istiqamət valideynlərlə əməkdaşlığın qurulmasıdır. Gənclərin karyera məsləhət xidmətinə, peşəyönümünə, ən müasir karyera məlumatlarına çıxışının təmin edilməsi vacibdir, lakin gənclərlə yanaşı valideynlərin də dəstəyə və sistematik məlumatlılığa ehtiyacı var. Daim dəyişən əmək bazarında valideynlər getdikcə daha mühüm rol oynamağa başlayırlar, buna görə də gənclər üçün vacib olan təkcə valideynlərinin təhsil

və təlim daxilindəki yönləndirmələri deyil, eyni zamanda gənclərin karyera yollarının izlənilməsidir. Bu baxımdan valideynlərin rolunun əhəmiyyətinə dair artan sübutlar olsa da, valideynlərin müasir əmək bazarına çıxan mövcud yollarla kifayət qədər tanış olmamaları səbəbindən, bəzən təmin etdikləri məsləhət və dəstəkdən əmin olmurlar, buna görə də öz övladlarına hansı peşə, yaxud karyera seçiminin onlar üçün ən yaxşısı olacağı barədə məsləhət verməkdə tərəddüd edir, yaxud çətinlik çəkirlər. Buna görə də valideynlərin dövlət və ya təhsil müəssisələri tərəfindən necə daha yaxşı dəstəklənə biləcəyini başa düşməyə ehtiyac var. Gəncin təhsili ilə yanaşı, onun karyera trayektoriyası boyunca davamlı valideyn dəstəyi, valideynlərin müxtəlif rollarda fəaliyyət göstərməsi uğurlu karyera inkişafına töhfə verən əsas amil kimi görülür. Peşəyönümü xidməti təkcə gənclərin təhsil və təlim zamanı birbaşa dəstəklənməsində deyil, həm də valideynlərin müxtəlif vasitələrlə cəlb olunmasında əsas rol oynayır ki, onlar övladlarının təhsil və karyera yolları üçün mövcud seçimlərini daha yaxşı başa düşə bilsinlər.

### Valideyn iştirakının müəyyən edilməsi

Valideyn iştirakı ilk növbədə, psixoloji və maliyyə dəstəyini təmin edən, öyrənməyə təşviq edən valideyn fəaliyyəti kimi müəyyən olunur. Valideynlər və tərəfdaşlar arasında səmərəli əməkdaşlıq, fərdin təhsil və inkişafını daha effektiv şəkildə təmin edən və təhsil sistemini gücləndirən bir faktordur. Valideynlər övladlarını doğru təhsil və karyera seçimi üçün təşviq etdikdə onların peşəkar həyat yolunda müvəffəq olmalarında əvəzsiz rol oynayırlar. Bu əməkdaşlıq, gənclərin öz potensiallarını maksimum göstərmələrinə yol açır, təhsildə daha uğurlu nəticələrinə, həmçinin peşəkar karyeralarını qurmağa və ya inkişaf etdirmələrinə səbəb olur.

Valideynlərin sosial və mədəni konteksti, valideynlərin övladlarının peşə seçiminə təsirini böyük ölçüdə müəyyənləşdirir. Valideynlərin peşə seçimi üzrə təsiri üç əsas amillə əlaqələndirilir:

1. **Rol model effekti:** Valideynlərin özünün peşə seçimi və iş təcrübəsi, övladların peşəkar marağının formalaşmasına təsir edir. Valideynlər öz uğurlarını və ya çətinliklərini paylaşaraq övladlarının peşəkar hədəflərini daha yaxşı anlamalarına kömək edir.
2. **Sosial status və iqtisadi durum:** Valideynlərin sosial və mədəni statusu övladların öz hədəflərini müəyyənləşdirməsinə və öz potensiallarını qiymətləndirməsinə təsir göstərir. Valideynlərin maliyyə durumu övladların təhsil istiqamətlərini və təhsil imkanlarını müəyyənləşdirir.
3. **Cins faktoru və cəmiyyətin gözləntiləri:** Bəzi cəmiyyətlərdə cins faktoru, valideynlərin öz övladları üçün peşə seçimində həlledici təsirə malikdir. Məsələn, bir çox ailələrdə oğlan övladlar mühəndis və ya hüquqşünas kimi, qız övladlar isə həkim kimi uşaqlıqdan “kodlanırlar”. Bundan əlavə, valideynlər bəzi peşələrdə çalışmağı öz övladlarına, məsələn, qız övladlarına “kişi işi” hesab etdikləri

sahələrdə, oğlan övladlarına “qadın işi” hesab etdikləri sahələrdə çalışmağı uyğun görmürlər.

Bu amillərdən yola çıxaraq söyləmək mümkündür ki, valideyin təsiri, övladların peşəkar maraqlarının və hədəflərinin müəyyənləşdirilməsində, onların peşə seçimi ilə bağlı yekun qərara inamlarının formalaşmasında önəmli rol oynayır.

Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiqlənmiş “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”nda valideynlərlə əməkdaşlıq aşağıdakı kimi müəyyən edilmişdir:

- Peşə marağının və qabiliyyətlərin öyrənilməsi. Bu tədbirlərə pedaqoji işçilər və valideynlər cəlb olunmaqla, təhsilalanın fərdi və psixoloji xüsusiyyətlərinin öyrənilməsi, habelə hər hansı peşə istiqaməti üzrə əmək və sahibkarlıq fəaliyyətinə marağının öyrənilməsi;
- Maarifləndirmə və məsləhət tədbirlərinin təşkili zamanı ümumi təhsil müəssisələri tərəfindən valideynlərin də yaxından iştirakının təmin edilməsi;
- “Əmək nədir?”, “Valideynlərimin peşəsi” və s. bu kimi mövzularda təqdimatların və sərgilərin keçirilməsi, müxtəlif peşə sahələrinə aid videofilmlərin nümayiş etdirilməsi, yaxın ərazidə yerləşən müəssisələrə ekskursiya, peşələrə dair oyunların keçirilməsi;

Fərqli təhsil pillələrində valideynlərlə əməkdaşlıq formaları müxtəlifdir. Məsələn, ümumi təhsil müəssisələrində peşəyönümü xidməti “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili” adlı metodik vəsaitdə müəyyən olunmuş, aşağıdakı tədbirlərlə həyata keçirilir:

- Peşə istiqaməti və peşə seçimi ilə bağlı anketlərdə iştirak;
- Peşəyönümü və övladlarının gələcək peşə seçimi ilə bağlı valideyn iclaslarında iştirak;
- Məktəbdə müxtəlif təhsil və sənaye müəssisələri ilə birgə təşkil olunan maarifləndirmə tədbirlərinə, seminar və mühazirələrə qatılma;
- Valideynlərin öz peşələri ilə bağlı şagirdlər qarşısında çıxışları;
- Yuxarı sinif və peşə təmayül siniflərinin şagirdləri üçün müəssisələrdə peşə sınağı tədbirlərinin təşkilində valideynlərin köməyi;
- Tətil zamanı təhsilalanların müvəqqəti işlə təmin olunmasında valideynlərdən dəstək;
- Şagird valideynlərinin dərnək, idman seksiyası, bədii studiya, uşaq teatrlarının rəhbəri kimi işləməyə cəlb edilməsi;
- Müəllimlər və şagirdlərin valideynləri arasında fərdi söhbətlər;

- Ümumi təhsil müəssisəsinin işçiləri, şagirdlərin valideynləri, məktəbə sponsorluq edən şirkətlərin sahibkarları, patronaj təşkilatlarının nümayəndələri və s. daxil olmaqla qəyyumlar şurasının yaradılması.

Peşə təhsili müəssisələrində həyata keçirilən tədbirləri aşağıdakı kimi müəyyənləşdirə bilərik:

- məktəblərdə, icmalarda və ailələrdə birgə tədbirlərin keçirilməsi;
- müəllimlər, psixoloqlar və valideynlər arasında ünsiyyətin yaxşılaşdırılması üsullarının tətbiqi;
- valideynlər, müəllimlər, təhsil müəssisəsinin digər əməkdaşları, ailələr, övladlar və gənclərlə çalışan psixoloji-pedaqoji mərkəzlər, başqa məktəblər, təşkilatlar və təhsil müəssisələri arasında əməkdaşlığın inkişaf etdirilməsi;
- valideynlərin övladlarının rifahı naminə övladlarının təliminə, məktəb həyatına və tədbirlərə cəlb edilməsi;
- məktəb və kolleclər tərəfindən valideynlərə övladlarına karyera seçimində dəstək göstərməkdə məlumatlı və özlərinə əmin olmaları üçün dəstək verilməsi;
- valideynlərə karyera yüksəlişi və əmək bazarı imkanları haqqında məlumat verilməsi;
- valideynlərlə fəal ünsiyyət qurmaq, onlara təhsil sistemi, peşələr və əmək bazarı haqqında məlumatların verilməsi;
- valideynlər və övladlar üçün peşəyönümü aparılması təklifi

Ümumilikdə valideynlərin peşəyönümü xidmətinin həyata keçirilməsində iştirakı aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Praktiki dəstək - valideynlərin övladlarının karyera ilə bağlı bacarıqlarının inkişafına dəstəyi (məsələn, ərizələrin, CV-lərin birlikdə yazılması, maddi dəstək və s.);
- Şifahi həvəsləndirmə – valideynlərin təhsil və karyera inkişafı seçimləri barədə məlumat verməklə övladını həvəsləndirməsi;
- Emosional dəstək – öz-özünə effektivliyi formalaşdırmaq, hisslər, arzular üzərində müzakirələr aparmaq;
- Karyera yarmarkaları və açıq qapı günlərində iştiraka təşviq – təhsil müəssisələrində və ya yerli iş yerlərində keçirilən bu tədbirlərdə övladların valideynlərinlə birlikdə iştirakı;
- Gələcək əmək bazarı, məşğulluq bacarıqları, şagirdlik və s. kimi mövzularda ekspert təqdimatları – təhsil müəssisələrinin valideynlərə təqdim etmək üçün universitetlərdən, kolleclərdən, yerli müəssisə tərəfdaşlıqlarından və s. mütəxəssislərin cəlb edilməsi ilə valideynin əmək bazarı haqqında müfəssəl təsəvvürlərinin formalaşdırılması;

- Həm valideynlərin, həm də övladların iştirak etdiyi seminarlar. Bu, karyera ilə bağlı ortaq təcrübə yaradır və valideynlərin karyera haqqında öyrənmələri və övladlarıyla təhsil və karyera yolları haqqında dialoqa başlaması üçün münbit mühit formalaşdırır.
- Valideynlərin müəssisənin peşəyönümü strategiyasının hazırlanmasına cəlb edilməsi - valideyn rəyindən istifadə edərək planlaşdırma, liderlik, əməkdaşlıq, hədəf və davamlı təkmilləşdirməyə əsaslanan effektiv valideyn cəlbetmə strategiyalarını əldə etmək mümkündür.

Təhsil müəssisələrində pedaqoji heyətin valideynlərlə əməkdaşlığın həyata keçirilməsində bir sıra öhdəlikləri də vardır. Peşəyönümü koordinatoru valideynlər ilə təhsilalanların maraq dairəsinə və bacarıqlarına dair sorğuların keçirilməsinin təşkilini həyata keçirir. Sinif rəhbəri şagirdlərin peşəyönümü və peşə hazırlığı ilə əlaqədar valideyn iclaslarının təşkilini həyata keçirir, şagirdlər və onların valideynləri arasında peşəyönümü test və sorğularının keçirilməsinə dəstək göstərir. Məktəb psixoloqunun isə valideynlər arasında peşə istiqaməti, peşə seçimi ilə bağlı sorğu anketinin keçirilməsi, valideyn və müəllimlər üçün peşə seçimi ilə bağlı maarifləndirmə sessiyalarının keçirilməsi, valideynlərin öz peşələri haqqında təhsilalanlar qarşısında çıxış etməyə dəvət edilməsi kimi fəaliyyətləri mümkündür.

## ƏDƏBİYYAT


1. “Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu;
2. “Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 2019;
3. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili (Metodik vəsait). Bakı, 2021;
4. “The role of parents and carers in providing careers guidance and how they can be better supported” Sally-Anne Barnes, Jenny Bimrose, Alan Brown, John Gough and Sally Wright, 2020;
5. “A Study on Students' Choice of Programme in the University. Olusola Ajibola, 2017;
6. “Home Is where the school Is: The impact of homeschool legislation on school choice”. Bhatt, R., 2014.

**Abstract:** Cooperation with parents in the implementation of career guidance is an extremely relevant and actual topic today. The Law of the Republic of Azerbaijan "On Employment" stipulates the provision of career guidance services to 4 groups of persons, one of which is defined as Parents (parents of students and pupils of educational institutions). The education system is changing, the concept of parenting, the needs are changing, and this requires parents to participate more competently and more usefully in the educational process of their children. The main goal of the work is to involve parents in the field of education of their children in a more competent and careful way, to encourage them. In this article, the influence of parents on an individual's choice of profession and the forms of cooperation with them are reflected.

**Аннотация**

В стать говориться о чрезвычайно актуальном на сегодняшний день теме, об сотрудничестве учебных предприятий с родителями в осуществлении профессиональной деятельности. Закон Азербайджанской Республики «О трудоустройстве» предусматривает оказание профессиональных консультационных услуг 4 группам лиц, одним из которых являются «Родители» (родители студентов и воспитанников образовательных учреждений). Меняется система образования, меняются концепции воспитания, потребности, а это требует от родителей более компетентного и полезного участия в образовательном процессе своих детей. Основная цель работы – более компетентно и внимательно вовлечение родителей в сферу образования своих детей и их поощрение. В данной статье так же отражены влияние родителей на выбор профессии и формы сотрудничества с ними.